Qonaqları səmimi salamlayan təhsil naziri öncə Misirlə Azərbaycan arasındakı hərtərəfli əlaqələrdən söz açaraq təhsil sahəsində mövcud olan geniş əməkdaşlıq istiqamətlərindən danışıb. Nazir bildirib ki, qədim tarixi köklərə malik olan Azərbaycan-Misir əlaqələri başqa sahələrdə olduğu kimi, təhsil sahəsində də yüksələn xətt üzrə inkişaf etməkdədir. Misir Ərəb Respublikası ilə təhsil əlaqələrinin müxtəlif istiqamətlər üzrə aparıldığını qeyd edən nazir tələbə mübadiləsi məsələsinə də toxunub. Misir Mərdanov bildirib ki, hazırda ölkəmizin ali məktəblərində 29 nəfər Misir Ərəb Respublikasının vətəndaşı təhsil alır, onlardan 26-sı magistratura və aspirantura səviyyələrində dövlət xətti ilə oxuyur. Eyni zamanda nazir Misir tərəfinin 2010-2011-ci tədris ilində daha 11 vətəndaşının Azərbaycanda dövlət xətti üzrə təhsil alması təklifi ilə Təhsil Nazirliyinə müraciət etdiyini diqqətə çatdırıb. Misir Mərdanov məlumat verib ki, bu ölkənin ali məktəblərində 21 azərbaycanlı tələbə təhsil alır. Nazir ali təhsil müəssisələri arasında qurulan əməkdaşlıqdan da söz açıb, bir müddət öncə əldə edilən müvafiq razılaşmaya əsasən Azərbaycan Dövlət Neft Akademiyasının Misir Ərəb Respublikasında filialının açılması üzrə məsələyə də toxunub.

Misir Mərdanov iki ölkə arasındakı əlaqələrdə təhsil sahəsinin böyük rolu olduğunu önə çəkərək Misir Ərəb Respublikasının ali təhsil nazirinin birinci müavinin Azərbaycana səfərinin bu əməkdaşlığın daha da genişləndirilməsinə öz töhfəsini verəcəyini əminliklə vurğulayıb.

Səmimi qəbul üçün minnətdarlığını bildirən səfir Sabir Əbdülqədir Mənsur ölkələr arasındakı ikitərəfli təhsil əlaqələrinin səmərəliliyinin artırılması və daha da inkişaf etdirilməsi baxımından görülən işləri qeyd edib, tələbə mübadiləsinin genişləndirilməsi və bu istiqamətdə nəzərdə tutulan məsələlərdən danışıb.

Ali təhsil nazirinin birinci müavini Məhəmməd Cabir Əbu Ali çıxış edərək, öncə Misir Ərəb Respublikasının ali təhsil nazirinin səmimi salamlarını çatdırıb. Məhəmməd Cabir Əbu Ali ötən gün Azərbaycanın ali məktəb rektorları ilə görüşdə müzakirə olunan istiqamətlərə diqqət çəkib, bu görüşün əməkdaşlıq üzrə yüksək əhəmiyyəti olduğunu vurğulayıb. Daha sonra qonaq Azərbaycan Dövlət Neft Akademiyasının Misirin Süveyş Kanalı Universitetinin nəzdində filialının açılmasının nəzərdə tutulduğundan, bununla bağlı görüləcək işlərdən söz açıb. Ali təhsil nazirinin birinci müavini Misir - Azərbaycan ali təhsil əlaqələrinin, tələbə mübadiləsinin inkişaf etdirilməsinin önəmli olduğunu bildirib. Çıxışının sonunda Məhəmməd Cabir Əbu Ali Azərbaycan Respublikası Təhsil Nazirliyinin nümayəndə heyətini öz ölkəsinə rəsmi səfərə dəvət edib.

Misir Mədəniyyət Mərkəzinin direktoru Adel Darviş Təhsil Nazirliyi tərəfindən göstərilən dəstək üçün təşəkkürünü bildirib və mövcud əməkdaşlığın genişlənəcəyinə ümidvar olduğunu qeyd edib.

Səmimi və qarşılıqlı anlaşma şəraitində keçən görüşdə tərəflər təhsil sahəsində əlaqələrin inkişafı üzrə digər məsələlər ətrafında da müzakirələr aparıblar.